# Balaxanıda birəsrlik tarixi olan neft quyusuna "Azərbaycan Dövlət Neft və Sənaye Universiteti-100" adı verilib

**Prezident İlham Əliyevin müvafiq Sərəncamına əsasən 100 illiyi silsilə tədbirlərlə qeyd edilən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin yaranma tarixi bundan sonra Balaxanı hasilat ərazisində birəsrlik yaşı olan neft quyusunun adında əks olunacaq. "ADNSU-100" adlanan quyu barədə sertifikatı "Balakhani Operating Company LTD"nin prezidenti Rövşən Rzayev ADNSU-nun rektoru, dosent Rüfət Əzizova təqdim edib.**





"Danışır sənaye" silsilə mühazirələri çərçivəsində universitetin müəllim və tələbə heyəti qarşısında çıxış edən Balakhani Operating Company LTD"nin prezidenti Rövşən Rzayev "Neft sənayesinin dayanıqlı gələcəyi: istiqamətimiz haradır?" mövzusunda fikirlərini bölüşüb. O, çıxışı zamanı Ulu Öndərin təhsil aldığı, Xoşbəxt Yusifzadə və çoxlu sayda digər tanınmış məzunları olan ADNSU-nun yetişdirdiyi mütəxəssislərin Vətənimizin enerji sektorunu yaradanlar olduğunu bildirib. Qeyd edib ki, 4-cü Sənaye İnqilabı dövründə dayanıqlılıq standartlarını yüksəltməyə çalışan hasilat şirkətlərinin bu gün yeni təfəkkürlü, innovativ, bilikli gənclərə böyük ehtiyac var: "Enerji sərvətlərimizin işlənilməsi məsuliyyətli və dayanıqlı şəkildə aparılmalıdır ki, Azərbaycanın rifahına və qlobal enerji təhlükəsizliyinə töhfə vermək də davam etsin. Balaxanı Əməliyyat Şirkəti ADNSU ilə əməkdaşlıq quraraq, sinif otağı ilə sənayeni biri-birinə yaxınlaşdırıb, qarşılıqlı şəkildə yeni ideya və innovativ təcrübələrlə çıxış edib ölkəmizin neft və qaz hasilatının dayanıqlılıq erasını birgə quracaq".





ADNSU-nun rektoru, dosent Rüfət Əzizov diqqətə çatdırıb ki, tarixi bir əsri aşan Azərbaycan Dövlət Neft və Sənaye Universiteti yüksək potensiala malik, sənayeyə ən yaxın ali təhsil müəssisələrindən biridir. Bugünkü tədbirdə təmsil olunan hər iki təşkilat üçün insan kapitalının formalaşması, xalqa, dövlətə xidmət əsas hədəflərdəndir. Bu baxımdan, şirkətlə təhsil müəssisəsi arasında qurulan əməkdaşlıq müsbət nəticə verəcək. "Əməkdaşlığımızda üç ümumi istiqamət vacibidir - müasir iş mühitinə uyğun kadrlar yetişdirmək üçün təhsil və tədqiqat proqramlarının həyata keçirilməsi, sənayenin təcrübəsindən istifadə edərək ADNSU tələbəsinin təhsildə keçirdiyi hər gününə praktiki faydanın qatılması, ekoloji mühafizə və dayanıqlılıq naminə elmə əsaslanan innovativ həll yollarının birgə işlənilməsi.

Tədbir çərçivəsində tərəflər arasında Anlaşma Memorandumu imzalanıb. Daha sonra ADNSU-nun rektoru "Balakahni Operating Company LTD"nin prezidenti Rövşən Rzayevə "ADNSU-nun 100 illiyi Yubiley medalı"nı təqdim edib.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 21 fevral (№ 38).- S.18.